## Ümumi məlumat

Ümumdünya Səhiyyə Təşkilatı – ÜST) (ingilis dilində - The World Health Organization – WHO) 1948-ci ildə təsis edilmiş və BMT-nin ixtisaslaşmış qurumu kimi fəaliyyət göstərən beynəlxalq təşkilatdır. ÜST-ün əsas missiyası dünyada insanların sağlamlığını qorumaq, xəstəliklərin qarşısını almaq, sağlam həyat tərzini təşviq etmək və səhiyyə sistemlərinin inkişafına dəstək verməkdir. Təşkilat 194 üzv ölkəni əhatə edir və qlobal səhiyyə standartlarının müəyyənləşdirilməsi, fövqəladə vəziyyətlərdə koordinasiya və səhiyyə sahəsində elmi tədqiqatların aparılması kimi funksiyaları yerinə yetirir.

### ÜST və Azərbaycan əməkdaşlığı

Azərbaycan Respublikası ÜST-yə 1992-ci il oktyabrın 2-də üzv olmuşdur. Bu əməkdaşlıq çərçivəsində ölkədə sağlamlıq siyasətinin inkişafı, epidemioloji nəzarətin gücləndirilməsi, qida təhlükəsizliyi və sanitariya-nəzarət tədbirlərinin təkmilləşdirilməsi, həmçinin sağlam qidalanma və ictimai sağlamlıq sahəsində birgə layihələr həyata keçirilir. ÜST-in tövsiyələri əsasında Azərbaycan səhiyyə sistemi üçün normativ baza hazırlanır və müasir beynəlxalq standartlar tətbiq olunur.

### ÜST və AQTA əməkdaşlığı

AQTA ÜST ilə sıx əlaqədə çalışır. AQTA ÜST-in qida təhlükəsizliyi, sanitariya və fitosanitar tələblər üzrə tövsiyələrini tətbiq edir, əhalinin sağlam qidalanması və qida məhsullarının təhlükəsizliyinin təmin olunması istiqamətində birgə tədbirlər həyata keçirir.

AQTA yarandığı dövrdən etibarən ÜST ilə əməkdaşlığı genişləndirir və aşağıdakı istiqamətlər üzrə bir sıra fəaliyyətlər həyata keçirir.

- “Dayanıqlı və yüksək səviyyədə təşkil olunmuş Milli Kodeks Sisteminin yaradılması üçün Azərbaycan Respublikasına dəstək” - Kodeks Etimad Fondu 2A layihəsinin həyata keçirilməsinə dəstək
- "Sözdən əmələ keç, sağlam qidalanmanı seç" layihəsinin həyata keçirilməsinə dəstək
- Sağlamlığın Təhlükəsizliyi üzrə beşillik Milli Fəaliyyət Planının (NAPHS) hazırlanmasında birgə fəaliyyət
- Vahid Sağlamlıq Fəaliyyət Planının hazırlanmasına dəstək